# Yorulmaz fəaliyyətin, uğurlu siyasətin nəticəsi – tərəqqi və inkişaf



***Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ilə bağlı indiyədək qəbul edilən dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər üzrə) respublikamızın sosial-iqtisadi simasının dəyişməsi baxımından mühüm önəm daşıyıb. Bu proqramların uğurla icra olunması nəticəsində regionların potensialı artıb, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşıb və əhalinin rifahı yüksəlib.***

Ötən il sentyabrın 27-dən başlanan və 44 davam edən Vətən müharibəsinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində tarixi qələbə ilə başa çatması və rəşadətli Azərbaycan Ordusu tərəfindən ölkəmizin işğalda olan torpaqlarının azad olunması, ərazi bütövlüyümüzün bərpası ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfə verib. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilən rayonlara mütəmadi səfərləri bu ərazilərin də tez bir zamanda inkişaf edəcəyinə, çiçəklənəcəyinə əminlik yaradıb.

Cari ilin keçən aylarında Prezident İlham Əliyevin bölgələrə ardıcıl səfərləri 2019-2023-cü illər üzrə Dövlət Proqramının icrasını sürətləndirməklə regionların tarazlı inkişafının təmin edilməsini, yeni iş yerlərinin yaradılmasını və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsini şərtləndirib.

**(ardı 3-cü səhifədə)**

# Yorulmaz fəaliyyətin, uğurlu siyasətin nəticəsi – tərəqqi və inkişaf



(əvvəli 1-ci səhifədə)

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal pandemiya dövründə Azərbaycanın bölgələrinin inkişafı istiqamətində atılan addımlar, reallaşdırılan layihələr xüsusi diqqət çəkir. Ötən müddət ərzində dövlətimizin başçısının rayonlara səfərləri çərçivəsində sosial obyektlərin, yeni müəssisələrin açılış mərasimlərindəki çıxışları, imzaladığı sərəncamlar, müvafiq strukturların nümayəndələrinə verdiyi tapşırıq və tövsiyələri də mühüm önəm daşıyır. Ölkə rəhbərinin bu cür hərtərəfli qayğısı bölgələrimizə yeni nəfəs gətirməklə yanaşı, yeni imkanlar da açır, rayon mərkəzləri və kəndlərin tərəqqisi üçün yeni vəzifələr müəyyənləşdirir.

Ölkə regionlarının, o cümlədən, kəndlərin sosial-iqtisadi inkişafı sahəsində görülən işlərin davam etdirilməsi, eləcə də, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası istiqamətində cari ilin ötən ayları ərzində məqsədyönlü işlər görülüb.

Yeri gəlmişkən, regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından əvvəl bu istiqamətdə qəbul edilən (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) digər proqramların icrası dövründə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən, qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə açılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dövlət proqramları çərçivəsində görülən genişmiqyaslı işlər qarşıdakı illərdə də regionların inkişafı üçün möhkəm zəmin yaradıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın dekabrın 6-da Quba rayonuna səfər çərçivəsində Olimpiya İdman Kompleksində, həmçinin Heydər Əliyev Fondu tərəfindən Birinci Nügədi kəndində inşa olunan 1 nömrəli tam orta məktəbdə və Qonaqkənd qəsəbəsində yeni mədəniyyət evində yaradılan şəraitlə tanış olmaları, "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin və Quba-Qonaqkənd avtomobil yolunun açılışında iştirak etmələri də regional inkişaf yönündə görülən işlərin bariz ifadəsidir.

Qeyd edək ki, təkcə Qubada deyil, digər rayonlarımızda da yaradılan idman kompleksləri regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir. Elə Quba universal kompleksində 200-250 işçinin çalışacağını, onların mütləq əksəriyyətinin yerli sakinlər təşkil edəcəyini nəzərə alsaq, bu məsələ ilə bağlı aydın təsəvvür yaranar.

Kompleksin Şahmat Mərkəzində idmanın bu növü ilə məşğul olmaq istəyənlər üçün hər cür şəraitin yaradılması isə dövlətimizin adı çəkilən sahəyə xüsusi diqqətindən xəbər verir.

Yeni iş yerlərinin yaradılmasından danışarkən, "ABAD" publik hüquqi şəxsin fəaliyyəti xüsusi dəyərləndirilməlidir. Çünki bu qurumun səmərəli işi nəticəsində yaradılan "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsi bir neçə ildir ki, qubalı mikro və kiçik sahibkarlara qida istehsalı müəssisəsi kimi tanış idisə, artıq həm də qablaşdırma vasitələrinin istehsalı müəssisəsi kimi onlara yardımçı olacaq.

Yerli sakinlər müəssisənin yerləşdiyi yeri uzun illər əsaslı təmirə ehtiyacı olan və istifadəsiz qalan binanın mövcudluğu ilə xatırlayırlar. Memarlıq elementləri qorunmaqla tamamilə yenilənən binada artıq kartondan müxtəlif qablaşdırma vasitələri, kağız və etiketlərin istehsalı, promo məhsulların hazırlanması, eyni zamanda, tullantı kağızların preslənməsi nəzərdə tutulur.

Xatırladaq ki, "ABAD" Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı fərmanla yaradılıb. Statistik göstəricilər isə onu deməyə əsas verir ki, "ABAD" fəlsəfəsi əsaslı reallaşmaqdadır.

Cari ilin ötən 10 ayı ərzində "ABAD" 500 ailəyə dəstək göstərib. Nəticədə "ABAD"çıların minlərlə çeşiddə sənətkarlıq, kənd təsərrüfatı və digər növ məhsulları satışa çıxarılıb. Ümumilikdə, 5,5 milyon manat dəyərində məhsulun "ABAD" vasitəsilə satışı həyata keçirilib. Müəssisənin açılışı ilə ilkin mərhələdə 20, sonrakı mərhələdə isə 50 nəfərin işlə təminatı nəzərdə tutulub.

Prezident İlham Əliyevin reallaşdırdığı uzunmüddətli iqtisadi inkişaf strategiyası çərçivəsində məktəb tikintisi və təmiri də xüsusi yer tutur. Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində 1 nömrəli tam orta məktəbin inşa olunması da bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevaya təhsil müəssisəsində görülən işlər barədə məlumat verilərək, Birinci Nügədi kənd 1 nömrəli tam orta məktəbin əvvəlki binasının 1971-ci ildə inşa olunduğu, son illər isə tam yararsız vəziyyətə düşdüyü bildirilib. Hazırda isə şagirdlərin Heydər Əliyev Fondu tərəfindən inşa olunan tam yeni məktəbdə təhsillərini davam etdirəcəkləri vurğulanıb. Bu isə o deməkdir ki, ərazidə keyfiyyətli və bərabərhüquqlu təhsil imkanı yüksək səviyyədə yaradılıb.

Son illərdə Quba şəhərində, o cümlədən, rayonun kənd və qəsəbələrində genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Bu, Qonaqkənd qəsəbəsinin timsalında da aydın nəzərə çarpır. Yeni inşa olunan mədəniyyət evi, ümummilli lider Heydər Əliyevin abidəsinin ətrafında yeni parkın salınması, qaz, işıq, yol problemlərinin diqqətdə saxlanılması, 46 kilometrlik Quba–Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişinin təmin olunması bunun bariz ifadəsidir.




Bütün bunlar bir daha göstərir ki, sosial dövlət olan Azərbaycanda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına daim həssaslıqla yanaşılır. Ayrı-ayrı proqramların icrası zamanı da bu məsələ xüsusi diqqətdə saxlanılır. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması da iş yerlərinin yaradılması prosesini sürətləndirir. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə artması fonunda yeni iş yerləri açılır, bu isə təbii ki, insanların həyat səviyyəsinin yüksəlməsində özünü qabarıq büruzə verir.

Sonda bir məqamı da xüsusilə vurğulamaq istərdik. Belə ki, son 18 ildə respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıb. Bütün bölgələrdə kənd yollarının tikintisi ilbəil daha da genişləndirilib. Həm sosial, həm də iqtisadi baxımdan mühüm önəm daşıyan həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılıb. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına təkan verib, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradıb. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə vəsait ayrılıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 dekabr.- S.1;3.